Xalq qəzeti.- 2021.- 12 avqust.- S.1;3.



# Azərbaycan regionda yeni reallıqlar yaradıb

**Vətən müharibəsində parlaq qələbəmizdən sonra erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi üçün Qarabağda geniş quruculuq işlərinə başlandı. Sözügedən istiqamətdə tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısı hələ ötən il noyabrın 6-da "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən, infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzaladı. Sənəddə qarşıya qoyulan vəzifələrin icrası məqsədi ilə Dövlət Komissiyası yaradıldı. Eyni zamanda, dağıdılan ərazilərdə quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait xərclənməsi qərara alındı. Həmçinin dövlətimizin başçısının 4 yanvar 2021-ci il tarixli fərmanı ilə düşməndən təmizlənən torpaqlarda dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradıldı.**

Bütün bunlala bərabər, işğaldan azad edilən ərazilərdə mülki idarəetmənin düzgün, çevik və səmərəli şəkildə həyata keçirilməsi məqsədi ilə dövlətimizin başçısı İlham Əliyevin yanvarın 19-da imzaladığı fərmana əsasən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri institutu təsis olundu, fevralın 4-də imzaladığı fərmana əsasən isə xüsusi nümayəndəliklər haqqında Əsasnamə təsdiqləndi. Həmin sənədlərdə xüsusi nümayəndəliklərin statusu, fəaliyyət istiqamətləri, hüquq və vəzifələri müəyyənləşdirildi, onların fəaliyyətinin təşkili məsələləri tənzimləndi, xüsusi nümayəndəliklərə müvafiq inzibati ərazi vahidlərində bir sıra məsələlər, o cümlədən, ərazilərin perspektiv inkişafının təmin edilməsi, mülkiyyətin mühafizəsi, dövlət və bələdiyyə əmlakından səmərəli istifadə olunması, sahibkarlıq, şəhərsalma, tikinti fəaliyyətinin təşkili, ətraf mühitin qorunması, nəqliyyat və yol infrastrukturunun inkişafı və digər məsələləri icrası həvalə olundu.

Vətən müharibəsindən sonra Azərbaycanın müasir reallıqlarına uyğun olaraq həm respublika daxilində yeni vəzifələr müəyyənləşdirildi, həm də bölgədə mühüm önəm daşıyan əməkdaşlıq formatlarının yaradılmasına başlanıldı. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bununla bağlı qarşıya bir sıra önəmli vəzifələr qoyuldu. Strategiyada işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanılması hesabına Azərbaycanın inkişafına böyük təkan verəcəyi diqqətə çatdırıldı. Bununla da regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, eləcə də, Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşməsində rolunun daha da möhkəmlənməsinə əlverişli zəmin yarandı.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qarşıdakı 10 il üzrə sürətli inkişafımız üçün 5 prioritetdən biri işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın reallaşdırılması, Qarabağın dirçəlişinə nail olunması vəzifəsi xüsusi yer tutur. Bununla əlaqədar sözügedən Milli Prioritetlərdə deyilir: "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın".

Postmüharibə dövrünün reallıqları sırasında Zəngəzur dəhlizinin açılması məsələsi də prioritet istiqamətdir. Bununla bağlı dövlətimizin başçısı çıxışlarının birində deyib: "Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq".

Zəngəzur dəhlizi ilə bağlı məsələni nəzərdən keçirərkən, bir mühüm məqamı xatırlatmaq istərdik. Belə ki, Vətən müharibəsində acı məğlubiyyətə uğrayan işğalçı ölkə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanata əsasən üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi. Həmin bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi vurğulandı. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutuldu. Bu il fevralın 14-də isə Prezident İlham Əliyevin Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da sözügedən bəyanatın 9-cu maddəsinin icrasına başlanılmasının bariz ifadəsinə çevrildi.



Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir".

Qarabağın dirçəlişində erməni quldurlarından xilas olunan torpaqların minalardan təmizlənməsi məsələsi isə ilk gündən diqqət mərkəzində saxlanıldı. Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizin minalardan təmizlənməsini Qarabağın yenidən qurulmasında, dirçəldilməsində ən mühüm vəzifə kimi dəyərləndirdi: "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri

Hazırda Minatəmizləmə Agentliyi minatəmizləmə əməliyyatlarında həm Türkiyə istehsalı olan avadanlığa üstünlük verir, həm də Avropanın aparıcı şirkətlərinin məhsullarından istifadə edir. Qardaş ölkənin minatəmizləyənləri artıq Qarabağda mina və partlamamış hərbi sursatların təmizlənməsi ilə məşğul olur. Rusiya da bu fəaliyyətlərdə iştirak edir.

Prezident İlham Əliyev Qarabağın dirçəlişi ilə bağlı bütün fikirlərində əhalinin işğaldan azad edilən ərazilərə qayıdışının, dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyanın təmin olunmasının düşünülmüş, planlı şəkildə, ardıcıllıqla, ən yüksək standartlar səviyyəsində həyata keçirilməsinə böyük həssaslıqla yanaşır. Bu baxımdan, istehkamçıların fəaliyyətləri yekunlaşandan sonra növbəti mərhələdə işğal nəticəsində vurulan ziyanın qiymətləndirilməsi işinə başlamaq nəzərdə tutulur.

Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz–Zəngilan dəmir yolu, ondan sonra Zəngilan–Naxçıvan dəmir yolu, Naxçıvan–Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də həmçinin. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz–Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin".

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan regionda yeni reallıqlar yaradıb

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan və Türkiyə respublikalarının prezidentləri iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanma mərasimindən sonra mətbuata birgə bəyanatlarla çıxış edərkən də bu barədə ətraflı bəhs edildi. Dövlətimizin başçısı bəyanatında dedi: “Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış birgə bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bəyanatında Azərbaycanın Zəngəzur dəhlizi layihəsini çox əhəmiyyətli hesab edərək, onu dəstəklədi. Qardaş ölkənin rəhbəri sözügedən layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacağını, bunun çox böyük əhəmiyyət kəsb edəcəyini diqqətə çatdırdı.

Xatırladaq ki, Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin də Azərbaycanla Türkiyə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyi öz ifadəsini tapıb.

Ümumiyyətlə, Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək.

Şuşa Bəyannaməsində Zəngəzur dəhlizi layihəsinə xüsusi önəm verilməsi Azərbaycan və Türkiyə üçün böyük əhəmiyyət daşıyır. Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran qardaş ölkə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə Zəngəzur dəhlizindən istifadə edəcək. Zəngəzur dəhlizi, hətta Türkiyə-Rusiya iqtisadi əlaqələrinin də güclənməsini şərtləndirəcək.

Onu da deyək ki, Azərbaycanın hazırda region dövlətlərindən biri olaraq, istər Çin, istərsə də İranla müxtəlif sahələri əhatə edən əməkdaşlıq əlaqələri var. Hər iki dövlətlə nəqliyyat-tranzit, ticarət, sənaye, turizm sahələrində əməkdaşlıq respublikamız üçün prioritet siyasi xətdir. Prezident İlham Əliyevin qlobal xarakter daşıyan siyasi və iqtisadi məsələlərə diqqətlə yanaşmasının nəticəsidir ki, ölkəmiz bir tərəfdən Çinin təklif etdiyi “Bir kəmər, bir yol” layihəsinə qoşulmaqla Asiya ilə Avropa arasındakı iqtisadi əlaqələrdə dayaq məntəqəsinə, digər tərəfdən də İranın da iştirak etdiyi “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşularaq logistika mərkəzinə çevrilir.

Bu gün Ermənistanın revanşist qüvvələri Zəngəzur dəhlizinin reallaşması əleyhinə çıxış edirlər. Halbuki onlar bu layihənin qeyd edilən üstünlüklərindən yararlanarlarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərlərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilərlər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafı gerçəkləşdirmək imkanları əldə edərlər. Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

Prezident İlham Əliyev iyulun 22-də Azərbaycan Televiziyasına müsahibəsində bununla bağlı deyib: “Biz siyasi leksikona “Zəngəzur dəhlizi” sözünü daxil etmişik. Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında danışırlar, yazırlar. Nə üçün? Biz bunu daxil etmişik, müntəzəm səylərlə, artıq bu reallıqdır. Biz Ermənistana gündəlik göndərmişik – sülh müqaviləsi. Qoy desin ki, istəmir, qoy desin ki, imtina edir. Mən bunu dəfələrlə demişəm, deyirəm: Biz hazırıq, danışıqlara başlayaq. Müharibə qurtarıb? Qurtarıb. Sülh istəyirsən, Ermənistan? İstəyirsən elə bil ki. Onda nə üçün sülh müqaviləsi imzalanmasın? Tanı bizim ərazi bütövlüyümüzü, sülh müqaviləsi imzalansın, sərhədlərin delimitasiyası həll olunsun. Bu məsələ ilə bağlı, baxın, bizim gündəliyimiz Avropa İttifaqının gündəliyi ilə, Türkiyənin, Rusiyanın gündəliyi ilə vəhdət təşkil edir. Onlar da deyirlər ki, delimitasiya üzrə iş aparılmalıdır, biz də deyirik. Ermənistan nə deyir? Deyir ki, yox, qoy, Azərbaycan bizim torpaqlarımızdan çıxsın. Biz öz torpağımızdayıq. Biz yeni reallıq yaratmışıq, təkcə Qarabağ zonasında yox. Yeni gündəliyi formalaşdıraraq artıq status məsələsi də qaldı kənarda, Dağlıq Qarabağ sözü də işlədilmir. Buna nail olmaq lazım idi”.

Dövlətimizin başçısı qeyd edib ki, bu, cəsarət, qətiyyət, düzgün addımlar, hücum siyasətimiz nəticəsində mümkün olub. Ermənistan bununla hesablaşmalıdır və istəsə də, istəməsə də yeni reallıqları qəbul etməlidir. Heç vaxt unutmamalıdır ki, dəmir yumruq yerindədir.

Onu xatırladaq ki, son vaxtlar Ermənistan tərəfi ardıcıl olaraq dövlət sərhədimizi pozur, Azərbaycana qarşı növbəti cəfəng və yalan ittihamlar yaymaqda davam edir. Otuz ilə yaxın Azərbaycana qarşı təcavüzkar siyasəti həyata keçirən Ermənistan bu gün də beynəlxalq hüquqa zidd mövqe göstərir, iki dövlətin sərhədinin delimitasiyası prosesinə “yox” deyir, üçtərəfli bəyanatların icrasına maneə törədir. Səbəb isə aydındır: Ermənistan Azərbaycana qarşı hələ də ərazi iddialarından əl çəkmək, ölkəmizin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdiyini qəbul etmək istəmir. Müdafiə Nazirliyinin avqustun 11-də mətbuata açıqlamasından da bunu aydın görə bilərik. Açıqlamada bildirilir ki, ötən il noyabrın 10-da Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmamışdır.

Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də, Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur. Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülür və bu kimi hallara imkan verilmir. Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün bu kimi təxribatlara əl atır.

Bütün bunlar Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verir. Xatırlatmaq istərdik ki, Ermənistanın sabiq müdafiə naziri David Tonoyan da “yeni müharibələr, yeni ərazilər” adlandırdığı təxribatçı hərbi doktrina ilə çıxış etmişdi. Onun rüsvayçı aqibəti isə hər kəsə məlumdur.

Müdafiə Nazirliyinin mətbuata açıqlaması bu sözlərlə bitir: “Rusiya Federasiyası sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır”.

Göründüyü kimi, bu gün Ermənistanın siyasi rəhbərliyini heç də erməni dövlətçiliyinin xilası düşündürmür. İşğalçı ölkənin üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, qeyri-qanuni erməni postlarını qoyması, əslində, bu ölkənin işğalçılıq, qəsbkarlıq mövqeyindən əl çəkmədiyini göstərir. Ermənistanın siyasi rəhbərliyi hələ də anlamaq istəmir ki, Ermənistan-Qarabağ münaqişəsi artıq başa çatıb. Azərbaycan tarixi torpaqlarını 30 illik işğaldan azad edib, postmüharibə dövründə yeni reallıq yaradıb.

Ermənistanın yenidən Azərbaycan torpaqlarını ələ keçirərək, ərazilərini genişləndirmək istəklərii isə xülyadan başqa bir şey deyil. Azərbaycan daha 30 il bundan əvvəlki ölkə deyil. İşğalçı nə vaxtsa bu niyyətini gerçəkləşdirmək istəsə, qarşısında 44 günlük müharibədə üzləşdiyi dəmir yumruğu görəcək.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***